BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2015*

UOT 94(429:24)

# ABŞ-da MÖVCUD AZƏRBAYCAN DİASPORUNUN ƏSAS PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİ: XOCALI SOYQIRIMININ TANIDILMASI

**A.A.MƏMMƏDOVA**
***AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu***
***kamandari_a@.mail.ru***

*Məqalədə XX əsrin ən faciəli hadisələrindən biri, 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri keçmiş Sovet Ordusunun hərbiçilərinin iştirakı ilə Azərbaycan xalqına qarşı amansızlıqla törədilmiş Xocalı faciəsi ilə bağlı hadisələr ətraflı qeyd edilmişdir. Xocalı soyqırımı – Azərbaycan xalqına, bütün bəşəriyyətə qarşı tarixi bir cinayət, amansızlıqla törədilən vəhşilik aktıdır.*

*Buna əsasən də hər il Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda, eləcə də Amerika Birləşmiş Ştatlarında həmvətənlilərimiz həmrəy olub Xocalı faciəsinin ildönümünü qeyd edir.*

**Açar sözlər:** Xocalı soyqırımı, qətliam, diaspora, strateji, prioritet

XX əsrin ən faciəli hadisələrindən biri, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş Sovet Ordusunun hərbiçilərinin iştirakı ilə Azərbaycan xalqına qarşı amansızlıqla törədilmiş Xocalı soyqırımıdır. Ardı-arası kəsilməyən hücumlar nəticəsində şəhər yerlə-yeksan edildi. Xocalıya qarşı törədilmiş bu soyqırımda şəhəri tərk edən 2500 Xocalı sakinindən 500 nəfərdən çoxu düşmən gülləsinin hədəfi oldu. Bu faciə nəticəsində 56-ı uşaq, 106-ı qadın, 70-i ahıl qocalar olmaqla – 500 nəfərdən çox Xocalı sakini qətlə yetrildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valdeyinini, 130 uşaq valdeyinlərdən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 milyard rubl dəyərində ziyan vurulmuşdur [3, 5].

Son illərin istintaq materialları sübut edir ki, Xocalı şəhərinin işğalı əsasən keçmiş SSRİ-nin dövründən Xankəndində yerləşmiş Rusiya ordusuna məxsus 366-cı motoatıcı alay tərəfindən həyata keçirilmişdir [3, 5]. Ermənilər isə onların dəstəyinə, gücünə arxalanıb şəhəri yerlə-yeksan etmiş, yerli sakinlər isə xüsusi vəhşiliklə qətlə yetrilmişdi. Erməni quldurlarının məqsədi Xocalı

şəhərini darmadağın edib, dinc əhaliyə qarşı qəddarlıqla divan tutmaq idi. Bununla da, Azərbaycan xalqının əzmini sındırmaq, mübarizliyini yatırmaq əsas məqsədlərdən biri idi. Üzücü olsada, bunu qeyd etməliyik ki,o dövrdə rəhbərliyin laqeydsizliyi və eləcə də hakimiyyət uğrunda mübarizə edənlərin dönüklüyü, xəyanətkarlığı üzündən erməni silahlı dəstələri hiyləgərcəsinə məqsədyönlü qurduqları plana əsasən bir çox məqamlarda öz istəklərinə nail oldular. Xocalı strateji əhəmiyyətə malik olan, lakin çətin bir ərazidə yerləşirdi [4, 10]. Belə ki, şəhərin müdafiəsi də çox zəif idi. 80 nəfərlik Xocalı özünümüdafiə dəstəsi heçbir zirehli texnika ilə təchiz olunmamışdı [6, 3]. Bu isə həminki dövrdə nə Xocalı şəhərinin qorunmasına cavabdeh olan hakim dairələrimizi, nə də dünya ictimaiyyətini narahat etmişdi.

Hal-hazırda dövlətimizin göstərdiyi qayğı və dəstəyi ilə, yürütdüyü siyasi-diplomatik kurs üzrə, eləcə də diasporamızın səmərəli fəaliyyəti əsasında istənilən konfransı, milli-mədəni tədbirləri həyata keçirə bilərik. Dağlıq Qarabağ ətrafında Ermənistanın təcavüzkarlıq siyasəti və BMT-nin 1992-ci ildə qəbul etdiyi qətnamələrə əməl edilməməsi və 1992-ci il 26 fevral Əsrin faciəsi Xocalı soyqırımının baş verməsi Amerikada Azərbaycan diasporu tərəfindən qəzəblə qarşılandı [2, 99]. Dünyanın bir çox ölkələrində, eləcə də ABŞ-da olan Azərbaycan diaspor təşkilatları Xocalı faciəsi ilə bağlı imza toplayır, soyqırımın tanıdılması və o cümlədən, qətliama siyasi qiymət verilməsində aparılan işlər, Amerikanın ayrı-ayr ştatlarında təşkil olunmuş "Xocalı həftəsi" adlı tədbirlər proqramı, "Xocalıya ədalət" kampaniya çərçivəsində soyqırımla bağlı həqiqətləri dünyaya çatdıran geniş silsilə tədbirlərdən ibarətdi [9, preslib.az]. Qeyd edək ki, Amerika Birləşmiş Ştatlarının vətəndaşlarının Xocalı şəhərində baş verən hadisələrlə bağlı məlumatlandırılması üçün həm Amerikada yaşayan soydaşlarımız, həm də orada fəaliyyət göstərən yerli diaspor təşkilatlarımız qətliamın tanınması istiqamətində məktub kompaniyası həyata keçirmiş, eləcə də, faciəni əks etdirən bir sıra multimedia lahiyələr işlənib hazırlanmışdı. Təşkil olunan tədbirlər, siyasi-diplomatik görüşlər üzrə aparılan işlər öz növbəsində ciddi nəticələr verməkdədir. Belə ki, 2011-ci ildə Xocalı soyqırımının 19-cu ildönümü ABŞ Konqresinin Nümayəndələr Palatasında anılmış, 2012-ci ildə isə konqresmenlər Stiv Koen, Den Boren ayrı-ayrılıqda Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı bəyanatlarla çıxış edərək, ermənilər tərəfindən qadın, uşaq və yaşlı insanlara qarşı istifadə edilən zorakılıq və işgəncələri "təsvir edilməz" adlandırmışdılar [7, diaspora.gov.az].

Ümumiyyətlə, Respublikamızda baş verən hadisələr – Qarabağ münaqişəsi, ermənilərin əsassız torpaq iddiaları, 1990-cı il yanvarın 20-də Bakıda, 1992-ci ildə Xocalıda törədilmiş qırğınlar, torpaqlarımızın 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyon insanın doğma yurdlarından didərgin düşməsi xaricdəki həmvətənlərimizin ictimai fəallığının artmasına təkan vermişdir [5, 38]. Eləcə də, ABŞ-da fəaliyyətdə olan Azərbaycan diaspor təşkilatlarından Azərbaycan Cəmiyyəti, Amerika Azərbaycanlıları Şurası, Azərbaycan Amerika Alyansı, Amerika-Azərbaycan Şəbəkəsi və digər

icmalarımız, o cümlədən Dünya Azərbaycanlıları Konqresi də Azərbaycanla, Xocalı faciəsiylə bağlı həqiqqətlərin təbliğində, tanıdılmasında aktiv iş aparır. Görülən işlərin nəticəsi olaraq, Amerika ştatlarında, Konqres və Senatda Xocalı soyqırımının tanıdılması istiqamətində müvafiq sənədlərin qəbulu, yerli diaspor təşkilatların və diplomatiyamızın birgə səmərəli fəaliyyətinin əsasında əldə olunan nailiyyətlərdi ki, faciəni qətliamkimi tanıyan digər ABŞ ştatları bunlardır:

Amerika ştatları içərisində Xocalı soyqırımınıilk tanıyan 2010-cu il fevralın 25-də Massaçusets ştatı olmuşdur. Həmin ştatın nümayəndələr palatası Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul etmişdir [8,Vikipediya, açıq ensiklopediya: Xocalı soyqırımı]**.**

- 2011-ci ildə isə Amerikanın Texas ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2011-ci ildə isə Amerikanın Nyu-Cersi ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2012-ci ilin 28 fevral tarixində Corciya ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2012-ci ilin 23 mart tarixində Men ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü ilin 28 yanvar tarixində Nyu-Meksiko ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü ilin 8 fevral tarixində Arkanzas ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü ilin 25 fevral tarixində Missisipi ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü ilin 4 mart tarixində Oklahoma ştatı Xocalı soyqırımını rəsmən tanımışdır. Oklahoma ştatı Senatının birinci sessiyasında Xocalı qətliamının tanıması barədə qətnamə qəbul etmişdir.
- 2013-cü ilin 18 mart tarixində Tennessi ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü ilin 18 mart tarixində Pensilvaniya ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü 3 aprel tarixində West Virginia ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü 3 aprel tarixində Connecticut ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2013-cü ilin 21 avqust tarixində Florida ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.
- 2014-cü ilin 4 mart tarixində Indiana ştatı Xocalı soyqırımını rəsmən tanımışdır [9, preslib.az].


Faciəni qətliam kimi tanıyan ABŞ ştatları

Beləliklə, ABŞ-ın 15 ştatı Xocalıda soyqırım törədilməsi faktını qəbul etmişdir.

Xocalı hadisələri ilə bağlı dünyanın digər ölkələrində olduğu kimi Amerikada da Azərbaycan diaspor icmalarının fəal üzvlərinin dəstəyi əsasında müxtəlif anım mərasimləri və aksiyalar keçirilmişdir. ABŞ-da fəaliyyət göstərən yerli diaspor təşkilatlarından Azərbaycan Amerika Alyansı (AAA) Xocalı soyqırımı həqqiqətlərini dünya ictimaiyyətinə catdırılması üzrə, həyata keçirdiyi ən irimiqyaslı tədbirlərdən biri 2012-ci ilin fevralında faciənin 20-ci ildönümü ilə bağlı olan kampaniyadır [1, 385]. 100 milyonlarla insanı əhatə edən kampaniya, silsilə tədbirlərdən ibarət olmuşdur [Yenə orada]. Amerika sakinlərinə Xocalıda çox ağır cinayətlərin törədilməsi faktının tanıdılması istiqamətində Nyu-York, Vaşinqton və Kolumbiya dairəsinin mərkəzi küçə, vağzal və metro stansiyalarında poster və bannerlərin yapışdırılması, soyqırıma həsr olunmuş filmin nümayişi və digər təbliğat tədbirləri həyata keçrilmişdir. Yalnız bu tədbirlərlə kampaniya müddətində ən azı 50 milyondan artıq insanın bu poster və bannerləri görmək imkanı olmuşdur. Azərbaycan Amerika Alyansının (AAA) saytında məhz Xocalıyla bağlı xüsusi bölmə yaradılmışdr ki, bura daxil olan hər bir kəs millətindən aslı omayaraq, ABŞ Prezidentinə və konqresmenlərinə "Dağlıq Qarabağ münaqişəsinin həlli ABŞ-ın xarici siyasətində yüksək prioritetə malik olmalıdır" adlı məktub göndərə bilər [9, preslib.az]. Həmçinin, Xocalı soyqırımını daha böyük müstəviyə, ABŞ-ın xarici siyasətində prioritet məsələlər dairəsinə çıxarmaq üçün saytda bu faciəli hadisələrlə bağlı verilən geniş məlumatlar, fotoşəkillər də öz əksini tapır. Eyni zamanda "Washington Post", "New-York Times" və "Politico" dərgilərinin internet səhifələrində bir həftə müddətində Xocalı soyqırımı ilə bağlı "pop-up" yerləşdiriləcək. Təkcə bu "pop-up" vasitəsilə həmin saytları ziyarət edən 10 milyona yaxın insana xocalı həqiqətləri çatdırılmşdı [1, 385]. O cümlədən, "Washington Post", "New-York Times" qəzetlərində 26 fevral sayının bütov bir səhifəsi Xocalı soyqırımına həsr olunmuşdu. Amerikada yaradılıb, fəaliyyətdə olan Azərbaycan diaspor təşkilatı kimi AAA-nın əsas məqsədlərindən biri də elə azərbaycançılıq, əxlaqi dəyərlərimizi, tariximizi yaymaq və dünyaya çatdırmaqdır. Məhz Xocalı həqiqətlərini, azərbaycanlılara qarşı yönəlmiş etnik təmizləmə siyasətini dünya ictimaiyyətinə çatdırmaq üçün Azərbaycan Amerika Alyansı bu kampaniyaya başlayıb [8,Vikipediya, açıq ensiklopediya: Xocalı soyqırımı]. Bu kampaniya silsilə tədbirlərdən ibarət olub, bir neçə həftə ərzində ABŞ-ın müxtəlif küçələrində, insanların daha sıx olduğu yerlərdə keçrilmişdi.

Beynəlxalq hüquqa əsasən soyqırım ən ağır cinayət, sülh və insanlıq əleyhinə yönələn ən dəhşətli əməldir. Bu barədə BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi qəbul edilmiş və 1961-ci ildən qüvvəyə minən "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması" konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit olunmuşdur [7, diaspora.gov.az]. Xocalı soyqırımını törətmiş olan ermənilərin və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktların – Cenevrə konvensiyası, Ümumdünya İnsan Haqqları Bəyannaməsi, vətəndaş və siyasi hüquqlar barədə Beynəlxaq Saziş, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafıəsi Bəyannaməsinə məhəl qoyulmamasıdır. Belə ki, dünya ictimaiyyətinin Ermənistanın təcavüzkar dövlət kimi apardığı müharibədən xəbərdar olduğu bir halda, yürütdüyü işğalçılıq siyasəti də 20 ildən artıqdır ki, davam edir.

Dövlət başçısı İlham Əliyevin Xocalı soyqırımının iyirminci ildönümü haqqında imzaladığı Sərəncamda deyilir ki, "Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır" [8, Vikipediya, açıq ensiklopediya: Xocalı soyqırımı]. Həmçinin Azərbaycan Prezidenti Xocalı soyqırımının XX əsrin ən böyük cinayətlərindən biri olduğunu bildirmişdi.

Hər il ABŞ-da fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Birləşmiş Ştatlar Konqresinin üzvləri, yerli hökumət və KİV nümayəndələrinə Xocalı hadisələri ilə bağlı məktublar göndərir, yerli mətbuat orqanlarında məqalələrlə çıxış edir. Hal-hazırda da beynəlxalq aləmdə Xocalı soyqırımına obyektiv qiymət verilməsi, bu faciənin həqiqətlərinin dünyaya çatdırılması, tanıdılması Azərbaycanın xarici siyasətinin, diasporamızın əsas prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Xocalı soyqırımı Azərbaycan xalqına, bütün bəşəriyyətə qarşı tarixi bir cinayət, amansızlıqla törədilən vəhşilik aktıdır. Qarabağ, Xocalı qədim tarixi abidələrlə zəngin, Azərbaycanın mədəniyyət ocağıdır. Xocalı heç bir azərbaycanlının unuda bilməyəcəyi qan yaddaşı, uğrunda canından belə keçməyə hazır olacağı doğma vətəninin ayrılmaz bir parçasıdır. Buna əsasən də hər il Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda, eləcə də Amerika Birləşmiş Ştatlarında həmvətənlərimiz həmrəy olub Xocalı faciəsinin ildönümünü qeyd edir.

**ƏDƏBİYYAT**


1. “Azərbaycan diasporu” ensklopedik məlumatlar toplusu. Bakı: 2012, 654 s.
2. Əliyev Z. “Dünya diasporaları”. Bakı: Qismet, 2005, 349 s.
3. Xocalı A. “Xocalı soyqırımının qurbanları”. Bakı: Şərq-Qərb, 1999, 192 s.

4. Qırxqızlı Q. "Əsrin faciəsi – Xocalı". Bakı: Şərq-Qərb, 1999, 124 s.
5. Qasımova A. "ABŞ-da Azərbaycan milli-mədəni mərkəzlərinin yaranması" // "Elm və həyat" jurnalı, №1. Bakı: 2012.
6. "Xalq qəzeti".-2009.-26 fevral.-N 45.-s.3.
7. diaspora.gov.az
8.Vikipediya, açıq ensiklopediya: Xocalı soyqırımı
9. preslib.az

## ОДНИМ ИЗ ПРИОРИТЕТНЫХ НАПРАВЛЕНИЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В США: ПРИЗНАНИЕ ХОДЖАЛИНСКОГО ГЕНОЦИДА

**А.А.МАММЕДОВА**

**РЕЗЮМЕ**

В статье отмечается одна из самых трагических событий XX века, 26 февраля 1992 года армянские вооруженные силы с участием Советской Армии, совершили против Азербайджанского народа трагедию. Ходжалинский геноцид - преступлением против человечества, акт жестокости.

Тем не менее, в Азербайджанской Республике, в Соединенных Штатах и за рубежом каждый год, в знак солидарности с нашими согражданами, отмечают годовщину Ходжалинской трагедии.

**Ключевые слова:** Ходжалинский геноцид,резня, диаспор, стратегический, приоритет

## ONE OF THE PRIORITIES OF THE AZERBAIJANI DIASPORA IN THE UNITED STATES: RECOGNITION OF KHOJALY GENOCIDE

**A.A.MAMMADOVA**

**SUMMARY**

The article higlights one of the most tragic events of the twentieth century, February 25 to 26, 1992, the night when the Armenian armed forces, with the participation of the former Soviet Army committed Khojaly genocide against the Azerbaijani people. Khojaly genocide is a crime against humanity, an act of cruelty.

The people of the Republic of Azerbaijan and our fellow citizens in the United States and other foreign countries commemorate the Khojaly tragedy every year.

**Key words:** Khojaly genocide, massacre, diaspora, strategic, priority